# Şuşa Bəyannaməsi: birlik və həmrəyliyin yeni təzahürü

***Dostluq və qardaşlıq üzərində qurulmuş Azərbaycan–Türkiyə əlaqələrinin bu gün dünyada bənzəri yoxdur. Bu əlaqələr tarixən qırılmaz tellərlə bir-birinə bağlı olan xalqlarımızın iradəsindən qaynaqlanır... Əminəm ki, Türkiyə–Azərbaycan həmrəyliyi və strateji müttəfiqliyi birgə səylərimizlə bundan sonra da xalqlarımızın mənafelərinə uyğun olaraq daha da möhkəmlənəcək və genişlənəcəkdir.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***



***Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanı tanıyan ilk dövlət Türkiyə olub. Müstəqilliyin ilk illərindən etibarən qardaş ölkə Azərbaycanın dövlət quruculuğu yolunda atdığı addımları daim dəstəkləyib, böyük dövlətlərin iştirak etdiyi tədbirlərdə Azərbaycan naminə haqq səsini ucaldıb. Ölkəmizin ən ağrılı problemi olan Qarabağ münaqişəsinin həllində Türkiyənin həmişə Azərbaycan xalqının yanında olması böyük dostluğumuzun, qardaşlığımızın ifadəsi və həmrəyliyimizin rəmzi kimi diqqət çəkib.***

Qırx dörd günlük Vətən müharibəsi zamanı Türkiyənin Azərbaycana verdiyi güclü siyasi və mənəvi dəstək buna bariz nümunədir. Belə ki, savaş dövründə ilk günlərdən etibarən Türkiyə Prezidenti ardıcıl açıqlamalar verirdi ki, Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır. Əslində, bu, bir çox ölkələr və beynəlxalq təşkilatlar üçün bir mesaj idi, yəni, “Ermənistana havadarlıq etməyin, haqq-ədalətin tərəfində olun” anlamını ifadə edirdi. Bu isə təbii ki, xalqımızı hədsiz sevindirir, qürurlandırır, belə bir şəraitdə tək, arxa-dayaqsız olmadığını göstərirdi.

Prezident İlham Əliyev bu məsələ ilə bağlı hələ Vətən müharibəsi zamanı çıxışlarının birində deyib: “Türkiyə bizə dəstək göstərir, lakin bu, siyasi dəstəkdir, bu, diplomatik dəstəkdir. Bu dəstək olmasaydı, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın “Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır” ifadəsi ilə bu çox açıq mövqe olmasaydı, çox güman ki, bu gün Ermənistan öz məqsədinə nail olmuş olardı. Bu da münaqişənin coğrafiyasının genişlənməsi və mümkün qədər çox ölkənin bu münaqişəyə cəlb olunmasından ibarətdir ki, bu ölkələr döyüş meydanında onlara kömək etsinlər”.

***(ardı 3-cü səhifədə)***

# Şuşa Bəyannaməsi: birlik və həmrəyliyin yeni təzahürü



(əvvəli 1-ci səhifədə)

Azərbaycan ilə Türkiyə arasında münasibətlərin möhkəmlənməsində dövlətlərimizin başçılarının şəxsi dostluq əlaqələrinin və qarşılıqlı səfərlərinin xüsusi əhəmiyyəti var. Dövlətimizin başçısı İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında mövcud dostluq və qardaşlıq münasibətləri ikitərəfli əlaqələrimizin bütün sahələrdə daha da genişlənməsinə öz müstəsna töhfəsini verir.

İkitərəfli müstəvidə uğurla inkişaf edən əməkdaşlıq münasibətlərimizlə yanaşı, ölkələrimiz tərəfindən beynəlxalq təşkilatlarda da fəal qarşılıqlı dəstək nümayiş etdirilir. Beynəlxalq təşkilatlarda, ilk növbədə, BMT-də, İslam Əməkdaşlıq Təşkilatında hər iki dövlət daim bir-birini dəstəkləyir.

İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan ilə Türkiyə arasında münasibətlərin daha da möhkəmlənməsində ölkəmizin, eləcə də regionun həyatına önəmli təsiri olan taleyüklü bir hadisə də mühüm rol oynadı. Belə ki, ötən il iyun ayının 15-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana səfəri çərçivəsində Şuşada Prezident İlham Əliyevlə birgə "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsini imzaladı. Bu bəyannamə tarixi köklərə, möhkəm təmələ əsaslanan Türkiyə–Azərbaycan birliyinin sarsılmaz olduğunu bir daha göstərdi. Eyni zamanda, bu sənəd hər iki qardaş ölkənin ümumi maraqlarının qorunmasında imkanların birləşdirilməsinin, regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətin qarşılıqlı şəkildə əlaqələndirilməsinin bundan sonra da diqqətdə saxlanılacağı əminliyi yaratdı. Buna görə də bəyannamə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və dövlətimizin başçısı İlham Əliyev tərəfindən "iki ölkə arasında əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsinin yol xəritəsi" kimi yüksək dəyərləndirildi.

"Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"ndə Azərbaycan və Türkiyə arasındakı ikitərəfli münasibətlərin daha da genişləndirilməsi perspektivləri diqqət mərkəzində saxlanılaraq, siyasi, müdafiə, mədəni, humanitar, səhiyyə, təhsil, sosial, gənclər, idman sahələrində imkan və potensiallarının birləşdirilməsi, dərinləşdirilməsi xüsusi yer tutur. Eyni zamanda, bu sırada iqtisadi əməkdaşlığın gücləndirilməsi, müştərək maraq daşıyan regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsi də önəmli vəzifələrdən biridir.

Şuşa Bəyannaməsində Azərbaycanla Türkiyə arasında ticari-iqtisadi münasibətlərdə milli iqtisadiyyatların və ixracın şaxələndirilməsi, eləcə də perspektiv sahələrdə birgə istehsalın qurulması, investisiya əməkdaşlığının qarşılıqlı faydalı inkişafı üçün daha əlverişli şəraitin genişləndirilməsi istiqamətində səylərin artırılacağı əminliklə vurğulanır. Bununla bağlı Azərbaycan və Türkiyədə istehsal olunan malların sərbəst hərəkətinin təşkili mexanizmlərinin yaradılması istiqamətində tədbirlər həyata keçiriləcəyi nəzərdə tutulur.

Şuşa Bəyannaməsində Türkiyə ilə Azərbaycanın dostluq və qardaşlıq münasibətlərini daha da gücləndirmək, regionda sülhü və sabitliyi qorumaq, möhkəmləndirmək məqsədi daşıyan bir sıra önəmli vəzifələr diqqət çəkir. Həmin vəzifələr 44 günlük müharibədən sonra bölgədə yaranan yeni əməkdaşlıq imkanlarını reallaşdırmaq istiqamətində önəmli addımlar atan iki qardaş ölkənin sülhə, əmin-amanlığa sadiq qaldığını göstərməklə bərabər, Cənubi Qafqazı sülh regionuna çevirmək məqsədi daşıdığından xəbər verir.

Bəyannamədə müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələləri də xüsusi diqqət çəkir. Başqa sözlə, sənəddə ordumuzun yeni çağırışlara uyğun olaraq yenidən formalaşdırılması, modernləşdirilməsi və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn tədbirlərin həyata keçirilməsi mühüm önəm daşıyır. İki qardaş ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılması, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunması istiqamətində sıx əməkdaşlığı da nəzərdə tutulur. Eyni zamanda, bəyannamədə bu məqsədlə səlahiyyətli struktur və qurumların qarşılıqlı əlaqəli fəaliyyətinin təmin edilməsi vurğulanır.

Ordumuzun 44 günlük Vətən müharibəsini parlaq qələbə ilə başa çatdırmasını şərtləndirən bir neçə amilə nəzər salsaq, bunu aydın görə bilərik. Belə ki, həmin amillərə döyüş hazırlığının bütün tələblərini yerinə yetirmək üçün şərait yaradılması, irimiqyaslı təlimlərin keçirilməsi, ordunun Ali Baş Komandanın diqqəti və səyi nəticəsində ən müasir döyüş vasitələri ilə silahlandırılması, artilleriya və aviasiyanın, eləcə də digər sahələrin inkişaf etdirilməsi daxil edilə bilər.

Buraya, həmçinin hər iki ölkənin Təhlükəsizlik Şuralarının milli təhlükəsizlik məsələləri üzrə müntəzəm olaraq birgə iclaslarının keçirilməsi və bu iclaslarda milli mənafe, ölkələrin maraqlarına toxunan regional və beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsinin aparılması daxildir.

Şuşa Bəyannaməsində iki qardaş dövlətin bir-birinə qarşılıqlı hərbi yardım göstərəcəkləri barədə razılıq əvvəlki hüquqi sənədlərdə də qeyd olunub. Bu fikirlərin Şuşa Bəyannaməsinin müddəalarında yenidən ifadə olunması isə dünya ictimaiyyəti, o cümlədən, regional dövlətlər, məğlubiyyəti ilə barışa bilməyən Ermənistan üçün ciddi siyasi mesajdır. Bu siyasi mesajda aydın şəkildə ifadə olunur ki, Azərbaycan təhdid və təcavüzlə qarşılaşarsa, Türkiyə təkcə mənəvi-siyasi deyil, həmçinin hərbi dəstəyini əsirgəməyəcək.

Tarixi sənəddə Azərbaycan və türk diasporları arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi, milli iqtisadiyyatların və ixracın şaxələndirilməsi üzrə səylərin artırılması, Cənub Qaz Dəhlizinin səmərəli şəkildə istifadə olunması və daha da inkişaf etdirilməsinə yönəldilmiş səylərin əlaqələndirilmiş şəkildə davam etdirilməsi, Azərbaycan ilə Türkiyəni birləşdirən Zəngəzur dəhlizinin açılması, regionda nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası, beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafının təşviqi kimi aktual məsələlər də yer alır.

Prezident İlham Əliyev Şuşa Bəyannaməsinin iki qardaş ölkənin müttəfiqlik əlaqələrinə müsbət təsirini yüksək dəyərləndirərək, bildirib: "Bu, tarixi bir sənəddir. Əslində, Türkiyə – Azərbaycan əlaqələri hər zaman müttəfiqlik səviyyəsində idi və müttəfiqlik xalqlarımızın qəlbindədir. Sadəcə olaraq, biz keçən il Şuşada bunu rəsmən təsdiqlədik".

Ölkə rəhbəri Türkiyə – Azərbaycan qardaşlıq əlaqələrinin bundan sonra da həm xalqlarımız, həm də bölgə üçün mühüm önəm daşıyacağını vurğulayaraq xatırladıb ki, belə bir əməkdaşlıq təkcə ikitərəfli formatla kifayətlənmir. Bu, eyni zamanda, bölgənin təhlükəsizliyini şərtləndirir. Belə ki, Türkiyə və Azərbaycan birgə səylərlə bölgənin gələcək inkişafını, təhlükəsizliyini təmin edir, qardaş xalqların rahat həyatını gerçəkləşdirir. Ümumiyyətlə, iki dövlət arasında mövcud əməkdaşlığın çoxşaxəliliyi dünya miqyasında belə müttəfiqik, qardaşıq əlaqələrinin bənzəri olmadığını deməyə əsas verir: "Dünya miqyasında Türkiyə və Azərbaycan qədər bir-birinə canla, qanla bağlı olan ikinci ölkələr yoxdur. Bu, bizim böyük sərvətimizdir və bunu biz qoruyuruq, gücləndiririk, istənilən vəziyyətə hazırıq və hər zaman bir-birimizin yanındayıq".

Hazırda müstəqil daxili və xarici siyasət kursu yürüdən, uğurlu diplomatiyası ilə düşmənin İkinci Qarabağ müharibəsindəki kimi siyasi və diplomatik səhnədə yenidən tək saxlanılmasına məcbur edən dövlətimizin başçısı dünyaya yeni nümunə göstərir. Ölkə rəhbəri ordumuzun daha da gücləndirilməsini, iqtisadiyyatımızın sürətli inkişafını diqqət mərkəzində saxlayır, bu istiqamətdə önəmli layihələrin gerçəkləşdirilməsinə xüsusi əhəmiyyət verir. Çünki bu, Ermənistan kimi bir ölkənin gələcək işğalçılıq niyyətlərindən qorunmağın ən başlıca yoludur.

Son 30 ildə Ermənistanın ölkəmizə qarşı yürütdüyü işğalçılıq siyasəti də, 27 il ərzində BMT qətnamələrinin icrasına məhəl qoymaması da qəsbkarın mahiyyətini, yürütdüyü siyasətin nə qədər təhlükəli olduğunu göstərir. Lakin buna baxmayaraq, Azərbaycan bu gün qalib ölkə kimi sülhə və bölgədə kommunikasiyaların açılmasına hazırdır. Məğlub Ermənistanın – xəstə təxəyyülün və sərsəm xülyaların girovuna çevrilən bu ölkənin də buna məcbur ediləcəyi, yeni geosiyasi reallığın şərtlərini yerinə yetirəcəyi şübhəsizdir.

*Vaqif BAYRAMOV,*
*"Xalq qəzeti"*